# Su şırıltısı...

(hekayə)



***Meyxoş Abdullah***

Onunla təyyarədə tanış olduq. İstanbul Bakı reysiylə uçan təyarədə yerimiz yan-yana idi. Təyyarə havaya qalxanda dərindən köks ötürdü və oturacaqdan bərk-bərk yapışaraq, hürkək nəzərlərlə mənə baxdı. Baxışlarından hiss etdim ki, o yüksəklikdən qorxur. Bu qorxu hissini onun canından çıxartmaq üçün, əvvəlcə, otutacaqdan bərk-bərk yapışan əllərindən tutmaq istədim. Sonra nə fikirləşdimsə, ağlımdan keçən bu fikirdən vaz keçdim. Gözlərimi onun gözlərinin içinə zillədim və demək istədim ki; - qorxmayın, siz burada tək deyilsiniz.

Təyyarə havaya qalxandan sonra, o bir azca sakitləşdi. Oturacaqda yerini rahatlayaraq, dərindən köks ötürdü və nəzərlərini təyyarənin salonuna dikdi. Onun sakitləşdiyini gördükdə mən də arxayınlaşaraq öz yerimi rahatladım.

Yol yoldaşım qürurlu qadına oxşayırdı. Bayaq, ani baxışlarından, gözlərinin rənginə kimi fikir vermişdim. Bir azca yaşıla çalan cazibədar gözlərinin dərinliyində, sanki keçmiş xatirələri mürgü vururdu. Səliqə ilə daranaraq çiyinlərinə tökülmüş xurmayi saçları dağ döşümdən süzülən şəlaləyə bənzəyirdi. Dalğavari saçlar onun bir azca uzunsöv, ağ sifətinə özgə bir yaraşıq verirdi. Barmağındakı iriqaşlı üzük, qolundakı böyük həcmli saat və boynundakı gümüşü həmayil nəzərlərimdən qaçmadı. Adətən rəsmi işlərlə məşğul olan qadınlar bu cür aqsesuarlardan istifadə edirlər.

Qadının ciddi görkəmi onu bir azca yaşlı göstərirdi. Amma sir-sifəti çox təravətli idi. Üz-gözündə bircə dənə də olsun qırış gözə dəymirdi. Qırmızı rəngə boyanmış dodaqları isə onun sifətini daha cazibədar göstərirdi. Hiss olunurdu ki, bu qadının cavanlığı çox ürəklərə dağ çəkmişdir.

O, təyyarənin pəncərəsindən göylərin ənginliklərini seyr edirdi. Adətən dalğın və fikirli adamlar belə edirlər. Onlar fikirlərini dağıtmaq üçün gözlərini bir nöqtəyə zilləyərək, uzun-uzadı xəyala dalırlar.

Oğrun nəzərlərlə ona baxırdım. Elə bil onu hardasa görmüşdüm. Amma belə bir ciddi qadını harada və nə vaxt gördüyümü xatırlaya bilmirdim. Əslinə qalsa, bəlkə də, onu ilk dəfə idi ki, görürdüm. Ancaq ilk baxışdan hardasa gördüyüm bir adam kimi o mənim diqqətimi özünə cəlb etmişdi.

Qadınlar kişilərin həmişə maraq dairəsində olurlar. İllah ki, uzaq səfərlərə çıxanda. Təyyarədə, qatarda qadınlarla yolyoldaşı olmaq çox maraqlı və yadda qalan izlər buraxır insanın qəlbində.

Onunla yaxından tanış olmaq istəyirdim. Onsuz da bir neçə saatdan sonra mənzil başına çatıb ayrılacaqdıq. Onun, bayaq təyyarə havaya qalxarkən azacıq qorxmağı indi söhbətimiz üçün mövzu ola bilərdi, düşündüm. Ona görə də, ehmalca:

- Xanım, daha qorxmursunuz ki? - deyə özümdə cəsarət tapıb soruşdum.

O qəfil səsdən diksinən kimi oldu. Tezcə də, üzünü çevirib mənə baxdı və gülümsədi. Gülümsəyəndə sağ gözü bir azca qıyılan kimi oldu. Bu halı ona çox yaraşıq verirdi. Sanki utancaq bir qız təsəvvürü yaratdı adamda. Qadınlar gülümsəyəndə çox gözəl olurlar, sanki məşhur rəssam Leonardo da Vinçinin Mono Lizası kimi...

Onu xəyallar aləmindən ayırdığım üçün məndən inciyəcəyini zənn etdim. O isə:

- Yoox... Daha qorxmuram. Bu hal məndə həmişə belə olur. Əslində, işimlə bağlı səfərlərdə çox olduğuma görə, təyyarədən tez-tez istifadə edirəm. Amma hər dəfə ayaqlarım yerdən üzüləndə beləcə həyəcan keçirirəm. Axı, biz yer adamıyıq, həm də, torpağa çox bağlıyıq, - dedi və yenə də gülümsədi.

Təəccübləndim. Elə təəccübləndim ki, hətta, o da mənim bu həyəcanımı hiss etdiyindən bir müddət gözlərini məndən çəkmədi.

Məni heyrətə gətirən onun səsi idi. Onun səsi ecazkar və nota köçürülməmiş həzin bir musiqini xatırlatdı mənə. Bəlkə də, məşhur musiqiçi Şopenin Pianoçusu kimi... Bu səsin həzinliyini bütün varlığımda hiss etdim. Bu səs, sanki ilmə-ilmə, damla-damla canıma, qanıma hopurdu. İnsan qəribə məxluqdur, başına gələcək hadisələri, elə bil, qabaqcadan duyurmuş kimi özünü həmişə ona hazırlayır. Ürəyimə danmışdı ki, bu səs əbədi olaraq yaddaşima həkk olunacaqdır.

Qadın mənim halımı sifətimdəki cizgilərdən hiss etmişdi. Odur ki:

- Nə oldu sizə, birtəhər oldunuz? - Olmaya, siz də təyyarədən qorxursunuz? - deyə soruşdu. Bu sözləri mənə deyərkən onun dodaqları qaçdı və o, xəfifcə gülümsədi.

Mən yuxudaymış kimi ayıldım, onun mənə dikilmiş baxışlarının altında bir azca özümü itirən kimi oldum. Hətta, məndə bir azca çaşqınlıq da yarandı. Anlaya bilmədim ki, o məndən nə soruşdu. Bir az keçəndən sonra ağlıma gəldi ki, xanım məndən narahatçılığımın səbəbini soruşur və o məndən cavab gözləyir. Odur ki:

- Heç, sizin səsiniz çox gözəldir! - dedim.

O, gülümsədi və qaşlarını çataraq:

- Ahaa, hətta... Bu komplimentdir, ya? - deyə o, başını astaca yırğaladı.

Mən bir azca sıxıldım. Anladım ki, tanımadığım bir xanıma bu cür sözlər demək, onun mənim haqqımda düşüncələrini dəyişə bilərdi.

O, sanki mənim narahatçılığımı gözlərimdən oxuyurmuş kimi:

- Necədir səsim, deyin, mənim üçün də maraqlıdır?

- Səsiniz çox gözəldir... Amma səsinizin nəyə bənzədiyini, doğrusu, təsəvvürümə gətirə bilmirəm, həm də bunu elə bu dəqiqə sizə izah edə bilmərəm.

O gülümsədi.

- Çox sağ olun, səsimin gözəl olduğunu bilirəm. Bir daha bunu mənə xatırlatdığınız üçün sizə minnətdarlığımı bildirirəm. Amma çox istərdim ki, səsimin nəyə bənzədyini mənim özümə də deyəsiniz. Bu mənim üçün çox xoş olardı.

Mən duruxdum və handan-hana:

- Doğrusu, tam yəqin edə bilmirəm. Amma səsinizi təbiətin hansı ecazkar füsunkarlığınasa bənzədirəm...

O, bu sözlərimdən xoşhal olmuş kimi:

- Nə gözəl. İndiyə kimi bunu mənə deyən olmamışdı. Sözləriniz xoşuma gəldi. Amma mənim üçün də maraqlıdır, görəsən səsim təbiətin hansı füsunkarlığını özündə əks etdirir. Bunu mütləq tapın və mənə də deyin, - deyə o gülümsədi. - Hə, onu da deməliyəm ki, - deyə xanım əlavə etdi. - Siz də yaxşı insana oxşayırsınız.

- Bunu nədən bilirsiniz? - deyə soruşdum.

- Mən bəzən insanların daxili aləmini görə bilirəm!

- Doğurdan?!

- Əlbəttə. Bax, sizə deyim, sizin daxili aləminiz yaradıcılıq planlarınızdan daha maraqlıdır. Həm də, sizin ətrafınız tərəfindən duyulmamaq bir probleminiz də vardır, düz deyirəmmi?

- Siz mənim yazıçı olduğumu hardan bilirsiniz? - deyə maraqla soruşdum.

- Mən demədim ki, siz yazıçısınız, dedim ki, siz yaxşı insansınız. Sizin nə yazdığınızdan mənim xəbərim yoxdur, amma hiss edirəm ki, siz xeyirxah insansınız.

Onun bu sözlərindən sonra özümə gəldim və hiss etdim ki, xanım ciddi olduğu qədər də mehribandır. Onunla ünsiyyət qurmaq istəyirdim, ona görə də ürəyimdən keçdi ki, özüm haqqında ondan nə isə bir şey də soruşum. Məsələn, soruşum ki, mən bir yazıçı olaraq nəyi daha çox sevirəm? Ağlıma gələn bu sualı elə belə də ona verdim:

- Siz dediniz ki, insanların iç dünyasını oxumağı bacarırsınız. Onda deyin görək, mən ən çox nəyi sevirəm?

Qadın mənalı-mənalı üzümə baxıb gülümsədi və:

- Deyimmi?- soruşdu.

- Əlbəttə, deyin! - deyə sevincək dilləndim.

- Siz ən çox dənizi sevirsiniz!

Yerimdən dik atıldım. Bu hərəkətim elə anidən və gözlənilməz oldu ki, xanım da diksindi.

- Nə oldu sizə?

- Düz tapdınız. Bunu hardan bildiniz? - deyə soruşmaq istədim. Amma bayaq onun; - "mən insanları tanıyıram" fikrin yadıma salıb susdum.

- Demək dənizi sevirsiniz? - deyə xanım başını buladı. - Mən də dənizi sevirəm, özü də çox sevirəm. Dəniz mənim sirrlərimi saxlayan tək dostumdur. Bilirsən, o necə sirr saxlayır?

- Bilirəm, - dedim. Mən də sirrlərimi dənizə danışıram.

- Sizin də sirriniz olur? Axı, kişilər sirr saxlamağı sevmrlər.

- Baxır kimə? - dedim.

- Hə, siz yazıçısınız, sizin ürəyiniz dolu olar, - deyə xanım mənalı-mənalı gülümsədi.

Onun nəyə işarə vurduğunu anlasam da susdum. Susdum ki, söhbət başqa bir məcrayə yönəlməsin.

- Türkiyədə istirahətdəydinizmi? - deyə soruşdum.

Üzümə baxıb gülümsədi və:

- Yox, iş dalısınca göndərilmişdim.

- Bəs, siz? Yəqin ki, yaradıcılıq ezamiyyətindəydiniz?

- Hə, elədir, bir az yazı-pozu işlərim vardı, onları həll etməyə gəlmişdim.

Düşündüm ki, bu məqamda onun nə işlə məşğul olduğunu soruşmaq yerinə düşərdi. Odur ki, dedim:

- Bəs siz? Sizin işiniz nədən ibarətdir?

O üzümə baxıb gülümsədi və mənalı-mənalı başını bulayıb:

- Bağışlayın, belə hallarda susmağa üstünlük verirəm. Susuram ki, ürəyimdəkiləri deyə bilim.

O dəqiqə səhvimi anladım və yersiz sualıma görə üzrxahlıq etmək istədim. Amma, nədənsə bacarmadım. Hiss etdim ki, o məni bağışlayıbdır.

Gözlərimi yumub bir azca yatmaq istədim. Elə həmin anda o ecazkar səs məni diksindirdi:

- Nədən yazırsnız? - soruşdu.

- Hər şeydən, ailə-məişət mövzuları, cəmiyyətdə baş verən hadisələr... sevgi, məhəbbət. İndi yazmağa mövzu çoxdur. Amma ən çox yazdığım və mənə uğur gətirən Qarabağ haqqında mövzulardır.

- Siz Qarabağlısınız?

- İndi biz hamımız Qarabağlıylq xanım, - deyə cavab verdim.

- Hə, düz deyirsiniz. Qarabağ bizim hamımızın dərdidir. Qarabağdan danışanda kövrəlirəm. Axı, anam Şuşalıdır, - deyə qadın dilləndi və dərindən ah çəkdi... Bir qədər sonra: - Onda siz cənublusunuz, elə deyilmi? - deyə soruşdu.

- Elədir! Bəs, siz bunları...

Sualımı tamamlamağa imkan vermədi.

- Cənublular, mehriban və çox danışan olurlar, - dedi. - Həm də, tez küsəyən, - deyə güldü.

Onun bu ərkyanalığı çox xoşuma gəldi...

... Nəhayət, səfərimiz başa çatdı.

Təyyarə limanında onun yüklərinə kömək etdim. Hara gedəcəyini soruşdum, bəlkə bir kömək lazım olduğunu dedim.

Gülümsəyərək:

- Narahat olmayın, məni çıxışda gözləyirlər, - dedi. Sonra: - Siz telefon nömrənizi verin, mehriban insan olduğunuza, həm də əsərlərinizə görə mütləq sizi axtarmalı olacağam! - dedi.

Ona telefon nömrəmi verdim. Gözləyirdim ki, o da mənə öz telefon nömrəsini versin. Hətta, onun telefon nömrəsini qeyd etmək üçün hazırlaşırdım da. O isə bircə kəlmə dedi:

- Mən sizi axtaracağam!

Sonra sürətli addımlarla çıxışa tərəf getdi.

Çıxışda onu biri hərbiçi olmaqla üç nəfər qarşıladı. Gözləyənlər onu görən kimi farağat vəziyyət alıb, hərbi qaydada salam verdilər.

O maşına oturanda ötəri də olsa, ətrafa nəzər saldı. Hiss etdim ki, uzaqdan da olsa mənimlə xudahifizləşmək istəyir. Məni gördüyünü bilmədim, çünki maşına oturarkən gözünə taxtığı qara eynək onun hansı səmtə baxdığını məndə yəqinlik yarada bilmədi. Amma mən qara rəngli xarici maşın gözdən itənəcən onu izlədim.

Maşın gözlərimdən yox olanadək yerimdən tərpənməyib, duruxub qaldım. Bu qadın kimdir? - deyə öz-özümə sual verdim. Cavabsız sual bir müddət beynimdə ilişib qalaraq, o qadını mənə xatırladırdı.

Bu hadisənin üstündən bir müddət vaxt gəlib keçdi. Hər xarici səfərlərə gedəndə, xüsusən də, Türkiyə səfərlərim zamanı gözüm o xanımı axtarırdı. Keçən bu vaxt ərzində bir dəfə də olsun onunla rastlaşmadım... Amma səsi və baxışları əbədi olaraq yaddaşıma hopmuş, o gözəl xanım üçün hiss edirdim ki, darıxıram. Özümü danlayırdım ki, niyə görə onun telefon nömrəsini almadım. Heç olmasa, adını öyrənəydim, bəlkə soraqlaşıb onu birtəhər tapa bilərdim. Bunları etmədiyim üçün çox peşiman idim.

**(ardı növbəti sayımızda)**